# Energetika naziri Natiq Əliyevin Natural Gas World-a eksklüziv açıqlaması: Azərbaycan OPEC qarşısında götürdüyü öhdəliyi artıqlaması ilə yerinə yetirib!

"Azərbaycan bu il qaz hasilatını artırmağı, neft hasilatını azaltmağı planlaşdırır". Bunu "Natural Gas World" nəşrinə müsahibəsində energetika naziri Natiq Əliyev bildirib. Azərbaycan 2017-ci ildə ümumi qaz hasilatını 0,8% artıraraq 29,561 mlrd. kubmetrə çatdırmaq niyyətindədir. 2016-cı ildə Azərbaycanda hasil olunan qazın həcmi 0,6% azalaraq 29,331 mlrd. kubmetr təşkil edib.

Cari ilin yanvarın 1-ə anbarlarda saxlanılan qazın həcmi 1,167 mlrd. kubmetrə çatıb.N. Əliyevin sözlərinə görə, Azərbaycan "Şahdəniz-1" layihəsi çərçivəsində hasilatı artırmağı planlaşdırır. Bununla yanaşı, gələn il "Şahdəniz-2" layihəsi çərçivəsindən ilkin hasilata başlanacaq. "2017-ci ildə "Şahdəniz-1" layihəsindən hasil olunacaq qazın 10 mlrd. kubmetrdən çox olacağı gözlənilir. Ötən il bu rəqəm 9,9 mlrd. kubmetr olub".

Natiq Əliyev bildirib ki, Azərbaycan OPEC üzvlərinin və kartelə daxil olmayan ölkələrin neftin hasilatının azaldılması ilə bağlı əldə etdiyi razılaşma çərçivəsində üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirir.

N. Əliyevin sözlərinə görə, cari ilin yanvarın 1-dən Azərbaycanda sutkalıq neft hasilatı 35 min barel azaldılıb. "Bu razılaşmaya əsasən, yanvarın 1-dən 20-dək Azərbaycanda sutkalıq neft hasilatı 789 min barel təşkil edib", - deyə o əlavə edib.

Nazir qeyd edib ki, ötən ilin analoji ayı ilə müqayisədə cari ilin yanvarında neftin qiyməti 25 dollar artıb və bu amil neft hasilatçılar üçün əlverişlidir.

http://caspianbarrel.org/?p=48524